# AZƏRBAYCAN RESPUBLIKASININ SƏHIYYƏ NAZIRLIYI

## ƏMR

**№ 22** **05.04.2019-cu il**

**"Respublikada "İmmunlaşdırma həftəsi"nin keçirilməsi barədə"**

Ümumdünya Səhiyyə Təşkilatının təşəbbüsü ilə 2006-cı ildən başlayaraq hər il Avropa regionunda "İmmunlaşdırma həftəsi" keçirilir və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi bu tədbirdə iştirak edir.

2019-cu ildə də bu tədbirin yüksək səviyyədə həyata keçirilməsi məqsədi ilə "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 8.14-cü bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. Ümumdünya Səhiyyə Təşkilatının tövsiyəsinə əsasən 2019-cu ilin 24-30 aprel tarixlərində Respublikanın bütün şəhər və rayonlarında "İmmunlaşdırma həftəsi" keçirilsin.

2. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tibb idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın:

2.1. hər hansı səbəblərə görə immunlaşdırmadan kənarda qalan uşaqların siyahısı hazırlansın və "İmmunlaşdırma həftəsi" ərzində onların peyvəndlərə cəlb edilməsi təmin edilsin;

2.2. immunlaşdırma tədbirləri barədə əhali arasında maarifləndirmə işinin aparılması təmin edilsin;

2.3. "İmmunlaşdırma həftəsi"nin nəticələri haqqında məlumat 10 may 2019-cu il tarixədək Respublika Gigiyena və Epidemiologiya Mərkəzinə təqdim edilsin.

3. Respublikanın şəhər və rayon gigiyena və epidemiologiya mərkəzlərinin direktorlarına tapşırılsın ki, immunlaşdırma tədbirlərinin təşkilinə və aparılmasına nəzarət təmin edilsin.

4. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktorunun vəzifəsini icra edən İ.Abdullayevə tapşırılsın:

4.1. Ümumdünya Səhiyyə Təşkilatının dəstəyi ilə "İmmunlaşdırma həftəsi" ərzində peyvəndlərlə əhatə səviyyəsinə nəzarət məqsədilə Respublikanın rayonlarında monitorinqin keçirilməsi təmin edilsin;

4.2. cari ilin aprel ayında Ümumdünya Səhiyyə Təşkilatının dəstəyi ilə Azərbaycan Respublikasında "İmmunlaşdırma həftəsi"nə həsr olunmuş dəyirmi masa keçirilsin;

4.3. "İmmunlaşdırma həftəsi"nin yekun nəticələri haqqında məlumat 15 may 2019-cu il tarixədək Səhiyyə Nazirliyinə təqdim edilsin.

5. Səhiyyə Nazirliyinin baş məsləhətçi-mətbuat katibi P.Abubəkirova tapşırılsın ki, "İmmunlaşdırma həftəsi" barədə kütləvi informasiya vasitələrində müvafiq məlumatların verilməsi təşkil edilsin.

6. Əmrin icrasına nəzarət nazir müavinləri Nigar Əliyevaya və Rahim Əliyevə həvalə edilsin.

**Nazir** **Oqtay Şirəliyev**